# Qori seminariyasının arxivi niyə yandı?



Araşdırıcı-jurnalist Şəmistan Nəzirli

**«Bu kitab bir xeyli böyük ola bilərdi. Ancaq maliyyə ucbatından kiçildi». Bu sözləri AzadlıqRadiosunun «Can Bakı» proqramına araşdırıcı-jurnalist Şəmistan Nəzirli söylədi. Təzəcə çapdan çıxmış «Qoridən gələn qatar» kitabının müəllifi olan Şəmistan Nəzirli kitabın çıxması üçün qohumlarına təşəkkür etdi: «Sağ olsunlar, kömək etdilər. Maliyyə ucbatından gecikirdi»- dedi...**

### QORİ SEMİNARİYASININ SƏNƏDLƏRİ YANIB...

Vaxtilə Qori, Tiflis, Bakı, Peterburq arxivlərində işləyərkən çoxlu sənədlər, şəkillər gətirdiyini deyən tanınmış araşdırıcı onları qoruyub saxladığını bildirdi. «Niyə bu sənədlərin, şəkillərin çap olunmasını istəyirdim? 1999-cu ilin dekabrında Tiflisdə Şevardnadze ilə Qamsaxurdiya arasında gedən döyüşlərdə Qori seminariyasının arxivi olan binaya mərmi düşüb yanıb. Heç nə xilas edə bilməyiblər. 1876-cı ildən bu yana yığılan sənədlər məhv olub gedib...»

Arxiv binasının yerində gül-çiçək əkildiyini görən araşdırıcı əvvəlcə arxivin başqa yerə köçürüldüyünü zənn edib. Ancaq ona həqiqəti deyiblər. «O saat soruşdum ki, Tamara Mixaylovna Smanidze dururmu? Getdim tapdım. Əvvəl tanımadı. Şəmistan olduğumu deyəndən sonra o qədər ağladı ki... Dediyinə görə, gecə arxivin yandığını eşidib ora gəlib, əlindən bir şey gəlmədiyindən, səhərə kimi alovlara baxıb ağlayıb. Çünki Tamara xanım həyatının 52 ilini qapı-qapı gəzib bu sənədləri toplamışdı».

### YAXŞI Kİ, SƏN SƏNƏDLƏRİN ÜZÜNÜ ÇIXARIB APARDIN!

Bu sözləri də Tamara xanım Azərbaycandan gələn araşdırıcıya deyib. «O vaxt kseroks yox idi. Mən gürcü fotoqrafına cibimdən pul verib sənədlərin şəklini çəkdirirdim. Dedim, gəlmişdim əlavə sənədlər toplayım. Tamara xanım dedi ki, nə aparıbsan, möhkəm saxla, indi heç nə yoxdur!».

Şəmistan bəy ilk gedişində arxivdə işləyərkən, bəzi qovluqları siçanların gəmirdiyini görüb: «Gördüm Mirzə Hüseyn Əfəndi Qayıbzadənin qovluğunun bir hissəsi yoxdur. Dedim, Tamara xanım, təkcə bizimkiləri belə saxlayırsınız, yoxsa... Dedi yox, özümüzünkülər də bu gündədir. Ən yaxşısı, gəlin öz sənədlərinizi aparın, yaxşı şəraitdə saxlayın».

Şəmistan bəy Bakıya qayıdan kimi bu məsələni Azərbaycan Yazıçılar İttifaqına çatdırır. O dövrdə İttifaqın sədri olan bir yazıçı (dünyasını dəyişdiyindən adını çəkmirik—S.İ.) deyir: ««Mne seyças nekoqda»—yani indi vaxtım yoxdur»...

**Seminariya barədə çox maraqlı fikirləri eşitmək üçün bu verilişi AzadliqRadiosu.az saytından dinləyin.**

***Sevda İsmayıllı***